**Bəstəkar Tofiq Quliyevin mahnıları**

Mənbə: AZERİ.org
© Azerbaijan İnternational

**Bakı Nəğməsi**

Bakı, əziz şəhər, mehriban diyar,
Sinəndə boy atıb oldum bəxtiyar.
Səndə ilk eşqimin yadigarı var.

Sən mənim söhbətim,
Şərəfim, şöhrətim.
Tükənməz dövlətim,
Əzizimsən, gözəl Bakı.

Ürəyim səninlə edir iftixar,
Xəzərin qoynunda saldın buruqlar.
Qəlbimdə qəlbinin hərəkəti var.

Baxdıqca doymuram gözəlliyindən,
Şirin nəğmə qədər sevimlisən sən.
Hər yerdə, hər yanda deyəcəyəm mən.

**Dostluq Mahnısı**

Dörd dost, dörd ürək, dörd yoldaşıq biz,
Birdir arzumuz, istəklərimiz.
Hər gün suları tən yara-yara
Birgə gedirik biz buruqlara.

Ayrılmaz dostlarıq biz,
Tükənməzdir qüvvəmiz.
Qarşımızda baş əyir
Mavi dalğalı dəniz.

Günəş nur səpir yollarımıza,
Dostluq gün verir qollarımıza.
Dostluq solmayan baharımızdır,
Hər vaxt sədaqət şuarımızdır.

O kəs dünyada çox bəxtiyardır,
Sadiq, ayrılmaz dostları vardır.
Dərdi, sevinci birgə bölürlər,
Birgə qəm çəkib, birgə gülürlər.

**Sevgi Valsı**

Bir vaxt uşaq idik, dost idin mənə,
Baş açıq, ayaq yalın gəzərdik bağları.
Səni gördüm, dostum, yad etdim yenə
Bir şirin yuxu kimi ötən o çağları.

Ah niyə,
Nə üçün
Mən beləyəm bəs bu gün,
Ah niyə,
Sənin mən
Tuta bilmirəm əllərindən.
Nə qəşəngsən, nə gözəlsən
Bu axşam sən əziz dost.

Ah, bu gözəlliyi bəs mən o zaman
Nə ücün hiss etmədim, dostum, bu günki tək.
Bu gün nə olsa da, əzizim, inan,
Öz sözün deyər sənə daha sevən ürək.

**Zibeydə**

Alagöz, Zibeydə, sən qəşəngsən, qəşəng.
Həsrətin qəlbimi yandırır, ay mələk.
Sənin mən hicrinə dözmərəm,
Səndən mən əlimi üzmərəm.

Alagöz, şirin söz, Zibeydə, mən sənə yalvarıram,
Dərdindən heyva tək saraldım, gəl mənə yalvarıram.
Alagöz, şirin söz, Zibeydə, mən sənə yalvarıram,
Dərdindən heyva tək saraldım, gəl mənə yalvarıram.

Yaz gəlib, hər yana gül açmışdır çəmən,
Bənövşə tək boynum əyilmişdir qəmdən.
Sənin mən hicrinə dözmərəm,
Səndən mən əlimi üzmərəm.

**Sevgilim**

İlk dəfə görmüşəm səni mən
Sahildə sevgilim.
O vaxtdan getməyir gözümdən
Xəyalın, ey gülüm.

Yadımda qaldı gül camalın,
Canımı aldı şux calalın.
Odlara saldı yar, xəyalın məni.

Biz gəzən bağçada o səhər
Əsirdi küləklər,
Heç olmaz hüsnünə bərabər
Əmirli çiçəklər.

**Ağacda Leylək**

Ağacda leylək yuva bağlar gedər,
Qız sevən oğlan hava bağlar gedər.

Ağacda alma yanağı qırmızı
Dər səbətə, yığ onu bağban qızı.

Ağacda alma dadı baldan şəkər,
Qız oğlan ilə onu xəlvət dərər.

Ağacda alma yetişib, dər tez ol,
Dostlar üçün sən onu göndər tez ol.

Yaşıl bağın gözəlidir ağ alma,
Almanı dərdin daha bağda qalma.

**Arzular**

Hər yanda al-əlvan
Çiçək açılır,

Baxdıqca üz gülür,
Ürək açılır.
Bəs neçin, yerində tutmayır qərar
Arzular, arzular,
Şirin arzular.

Həyatım, gəncliyim
Bəxtəvər, azad.
Məhəbbət insana
Verir qol-qanad.
Çataram mən sizə
Bir gün vaxt olar.
Arzular, arzular,
Şirin arzular.

**Kamilin Mahnısı**

Deyirlər hər kəsin öz sevgisi var,
Qoşa yaranmışdır əzəldən onlar.
Ömrüm, günüm keçir, hardadır o yar, a balam.

Onu bircə dəfə görə biləydim,
Ona ürəyimi verə biləydim.

Yanına göylərdən süzüb  gedərdim,
Dərin dəryaları üzüb gedərdim.
Hər bir zəhmətinə dözüm gedərdim, a balam.

**Bağçamız**

Hər yan əlvan gələcəkdir,
Ətrafımız gül-çiçəkdir
İndi durma gəl, dostum, bəri!

Bilsin hər uşaq
Bizimdir bu bağ.
Onun barı hər nübarı,
Göy budağları! Hey!
Göy budağları!

Yorulmasın əllərim,
Çiçəklənsin güllərim,
Bəzək vuraq ana torpağa.

Bilsin hər uşaq
Bizimdir bu bağ.
Onun barı hər nübarı,
Göy budağları! Hey!
Göy budağları!

**Sevinc Mahnısı**

Xalqımın günləri
Nə gözəl, necə şən keçir
Hər şirin arzular
Ürəyimdən keçir.

Çala-çala min zəfər
Hər nəfər,
Yurdumuzda
Abad olur el-oba,
Kənd, şəhər
Yurdumuzda.

Açа-açа güllərimiz,
Yaşa-yaşa ellərimiz,
Daşa-daşa sellərimiz,
Günlərimiz var!

Gözəldir, a dostlar,
Vətənin toyu, bayramı.
Bu azad mahnını
Qoy söyləsin hamı.

**Bahar Mahnısı**

Elimin, yurdumun çox baharı var.
Solmayan al-yaşıl taləzarı var.
Sevən aşiqlərin düz ilqarı var.

Gəldi bahar,
Güldü bahar,
Bəxtimiz kimi.

Canımı verərəm yara sadağa,
Sevmək vətənimdə deyil qadağa,
Amandır, gözümdən getmə uzağa!

### Bəxtəvər Oldum

Getdikcə bu eşqin mərəzi pürxətər oldu,
Dərman elədikcə ona döndü betər oldu.

Eşqin odu yandırdı mənim canımı, ey vah!
Bu vaqiədən cümlü-cahan bixəbər oldu.

Həsrətdə qalıb, vəslə ümid eyləmişəm mən,
Zülmətdə qalıb, istəyim hər an qəmər oldu.

Sənsiz, gözəlim, hicrə düşüb zəhr içərdim,
Gəlcək yanıma zəhr dönüb bal, şəkər oldu.

Gördüm səni mən, dərdü ələm getdi, dağıldı,
Əhvalıma bax, sanki gecəydi, səhər oldu.

Xaqani, sevin, indi yarın rəhmə gəlibdir,
Bundan sonra könlüm, deyəsən, bəxtəvər oldu.

### Neftçi Mahnısı

Canım Bakı, qanım Bakı, ana Vətən
Yaranmısan xalqımızın qüdrətindən.
Qara qanın qaranlığa işıq saçar
Ağ günlərdən gələcəyə yollar açar.

Sənsən həyatım,
Qolum-qanadım,
Vüqarım adım!
Azərbaycan!
Qəlbimdə qaynar
Qızıldan çaylar,
Şöhrətim-şanım,
Azərbaycan!

Sən gözümün işığısan,
Mavi Xəzər.
Günəşlə bir oyanırsan
Səhər-səhər.
Gözəl Bakı, göz bəbəyim,
Paytaxtımsan,

Öz şəhərim, öz vətənim,
Öz bəxtimsən.

**Axşam Görüşləri**

Ulduzlar yaxın-uzaq,
Düzülüb çıraq-çıraq.
Ulduzları yandıraq
Axşam görüşlərinə.

Məclisimiz xoş olsun,
Şən mahnılar qoşulsun,
Deyək: sevinc nuş olsun
Axşam görüşlərinə.

Hər könüldə bir bahar
Gəlsin dostlar, tanışlar,
Gəlsin nəğməli quşlar
Axşam görüşlərinə

Alnı açıq, üzü ağ,
Deyək, gülək, danışaq.
Toplaşsın böyük, uşaq
Axşam görüşlərinə.

**Sevdiyim Qız**

Hələ quşlar uçmamışdı budaqdan,
Günəş girdi otağıma, səpdi nur.
Gülə-gülə dedi mənə: yatma, dur,
Sevdiyin qız oyanmışdır bayaqdan.

Yol uzunu sərin yeli səhərin,
Toxundurdu nəfəsini üzümə.
Sevdiyim qız görünmədi gözümə,
Geniş, qaynar qucağında şəhərin.

Mən zavodun həyatinə gələndə
Elə bildim səhər təzə açıldı,
Üstümüzə al şəfəqlər saçıldı,
Sevdiyim qız mənə baxıb güləndə.

## Yox, Yox, Yox

Qara gözün badam?
O dedi: yox, yox, yox, yox.
Mənə gəlsin qadan?
O dedi: yox, yox, yox, yox.
Dedim: İnsaf elə?
Dedi gülə-gülə:
Səndən yar olmaz mənə.

Düz dolan, düz otur, ay kişi,
Yaş ötüb, deyəsən, yetmişi,
Bir dənə ağzında yox dişi.
Bir utan, qızına aşiq olarmı adam?

Sənə qurban Hacı?
O dedi: yox, yox, yox, yox.
Hacı yar möhtacı?
O dedi: yox, yox, yox, yox.
Dedim: Ay qız dayan,
Dedi: olsun həyan!
Səndən yar olmaz mənə.

## İlk Bahar

Yenə gəldi ilk bahar, yaz gülə-gülə,
Bu qədər gəl etmə yar, naz gülə-gülə.
Səni sevdim qəlbimlə, ey gözəl pəri,
Mənə söylə bir şirin söz gülə-gülə.

Mən aşiq gülə bəndəm,
Bülbüləm gülə bəndəm,
Xəstəyəm, qalıb əlacım
Bir şirin dilə.

Açılıb hər yan çiçək, bax gözəl-gözəl,
Telinə əlvan çiçək tax gözəl-gözəl,
Yanıram hicrinə mən, dön sərin suya
Ürəyimə sel kimi ax gözəl-gözəl.

## Darıxma

Görüşə yarın geçikib, ay qız, ay qız,

Qəlbini sıxma, qəlbini sıxma.
Səninçin çiçək axtarır yalnız, yalnız.
İndicə gələr,
Gözlərin gülər,
Beş dəqiqə döz
Qəlbini sıxma
Darıxma, darıxma, darıxma…

Görüşə yarın geçikib, oğlan, oğlan.
Özündən çıxma, özündən çıxma.
Sənə naz üçün yubanır, inan, inan.
İndicə gələr,
Gözləri gülər,
On dəqiqə döz,
Özündən çıxma,
Darıxma, darıxma, darıxma…

### Etibar

Əzəldən hüsnünün vurğunuyam mən,
Həyatda ümüdüm yeganəsən sən,
Sevgində vəfasız, sən haqsız deyilsən,
Səbəb nə, küsürsən, şikayətin var?
İncimə gözəlim, eylə etibar.

Hicran yollarında axdı göz yaşım,
Sirrimi bilmədi dostum, yoldaşım,
Məndən üz döndərdi, sənintək sirdaşım.
Səbəb nə, söylə bir, şikayətin var?
Vəfasız deyiləm, eylə etibar.

### Faytonçu

Faytonçu asta gedər
Qulağı səsdə gedər,
Faytonda gedən qızın
Sədası dosta gedər.

Şəhərin yolu daşdı,
Sağı daş, solu daşdı,
Bu şəhəri görənə
Xatirələr yoldaşdı.

Eyvana sona çıxdı,
Bürünüb dona çıxdı,
Sür atını faytonçu,
Sənə yollar açıqdı.

Hər daşda bir nağıl var,
Nağılında noğul var,
Asta sür, bu şəhərin
Gül yuxusu dağılar.

## Qız Əlləri

İşdə görünməz gözünə,
Bəzən yer tapmaz özünə,
Həsrətdir şair sözünə,
Qız əlləri, qız əlləri,
Bu elin qoçaq əlləri,
Gözəl, utancaq əlləri,
Qız əlləri, qız əlləri.

Su gətirər, ocaq qurar,
Ev saxlayar, bəzək qurar,
Qara gündə məğrur durar,
Qız əlləri, qız əlləri.

Bu elin igid əlləri,
Dözümlü, sakit əlləri,
Qız əlləri, qız əlləri.

Üzüm dərər, körpə bələr,
Yıxılsan, köməyə gələr,
Gizlində göz yaşı silər
Qız əlləri, qız əlləri.

Bu elin ana əlləri,
Göyərçin, sona əlləri,
Qız əlləri, qız əlləri.

## Lay-Lay

A lay-lay, bəyim, lay-lay,
Gözəl göyçəyim, lay-lay,
Qürbət yerdə, qürbət yerdə, yad eldə,

Tapmadım kömək, lay-lay.
Lay-lay, lay-lay, lay-lay balam, lay-lay.

Gözümün qarasından,
Yaş axır arasından,
Adam da əl, adam da əl çəkərmi
Öz ciyər parasından.
Lay-lay, lay-lay, lay-lay balam, lay-lay.

### Bakılıyam Mən

Mavi xəzər ürəyidir bu yerin,
Gül nəfəsi küləyidir bu yerin,
İnsanları köməyidir bu yerin,
Bakım mənim, ömrüm-günüm, səhərim;
Elim-obam, yurdum-yuvam, şəhərim.

Oğulları gətiribdir baharı,
Qız qalası qızlarının vüqarı,
Binaları buludlardan yuxarı,
Bakım mənim ömrüm-günüm, səhərim;
Elim-obam, yurdum-yuvam, şəhərim.

Sənə könül vermişəm
Yurdum deyib sevmişəm
Hara getsəm vüqarla,
Bakılıyam demişəm.

Köhnə Bakı tarixlərin yaddaşı,
Təzə Bakı bir mirvari daş-qaşı,
Hər bacının neçə igid qardaşı,
Bakım mənim ömrüm-günüm, səhərim;
Elim-obam, yurdum-yuvam, şəhərim.

### Azərbaycana Gəlsin

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin.
Bəzənib başdan-başa şəhərləri, kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin!

Bağçaları, bağları, zavalsızdır qış-bahar,
Məhəbbəti, şöhrəti dolaşır diyar-diyar.

Al bayraqlar altında, alnı açıq, bəxtiyar
Millət görmək istəyən Azərbaycana gəlsin!

Payızında, qışında, baharında, yazında,
Dinir dostluq nəğməsi könüllərin sazında.
Sabaha addımlayan mərd oğlun da, qızın da,
Qeyrət görmək istəyən Azərbaycana gəlsin!

**Bakı Haqqında Mahnı**

Sən ana Xəzərimin sahilində,
Şən Bakı, şöhrətin var el dilində.
Səhərlərin aydın, təmiz
Bir döyünür ürəyimiz.
Sən şəhərlər gözəlisən, Bakı
Ey cavan Bakı,
Mehriban Bakı!

Bax, necə göy Xəzərim ləpələnir
Hər səhər sularına nur çilənir.
Böyük, əzəmətli şəhər
Günəşli, qüdrətli şəhər
Sən şəhərlər gözəlisən, Bakı
Ey cavan Bakı,
Mehriban Bakı!

**Qəmgin Mahnı**

Mən çox gün görmədim,
Bil ki, dünyada.
Ah, nə dərdə düşdüm,
Cavanlıqda mən.
Hər gülün rəngini salıram yada,
Mən yada.
Ağlaya-ağ1aya, ağlaya-ağ1aya, qaranlıqda mən.

Bax, gəlib ilk bahar, qaynayır sular,
Gör, nələr söyləyir quşların səsi?
Ürəyimdə şirin, ən xoş arzular, arzular,
Dilimdən düşməyir, dilimdən düşməyir,
Sevgi nəğməsi.

## Tez Gəl

Yenə göy üzünü bulud aldı, yar,
Ah, niyə gəlmədin, harda qaldın?
Gözümü yolda qoyub,
Bir yubanan yar, nə edim?
Gözümü yolda qoyub,
Bir yubanan yar.
Ah! Baxmıram yağışa,
Gedirəm o başa,
Gəlirəm bu başa.
Ah! Baxırsan yağışa,
Bəlkə də başını
Atırsan balışa.
Gülüm, harda qaldın, qaş qaraldı.
Gözümü yolda qoyub,
Bir yubanan yar, nə edim?
Gözümü yolda qoyub,
Bir yubanan yar.

Yar gəlir görüşə, gözüm aydın yar.
Sürüşə-sürüşə, gözüm aydın.
İslanıb üstü-başı
Yaz yağışından yarımın,
Tökülür bir can alan
Naz baxışından.
Ah! Qurbanam nazına,
Yurdumun qızına,
Qışına, yazına,
Ah! Bal kimi sözünə,
Qap-qara gözünə,
Ay kimi üzünə.
Gülüm xoş gəlmisən, mənimkisən.
Ay ötür, il dolanır
Öz gözəlimsən, gözəlim
Ay ötür, il dolanır,
Öz gözəlimsən.

## Qızıl Üzük

Üzüyümün qaşı firuzədəndir,
Könlüm açılmayır,
Bu gün nədəndir?

Yaman gündə dost əlindən bərk yapış,
Dünyanın həvəsi keçib gedəndir.
Dünyanın həvəsi keçib gedəndir.

Bizim bağlar, çöllər
Xoş bir tamaşa.
Sonalar göllərdə
Gəzərlər qoşa.
Necə çətin olsa ömrün yolları,
Birlikdə yorulmaz, vurarıq başa.
Birlikdə yorulmaz, vurarıq başa.

Bulud gələr,
Çiskin çilər çən eylər.
Yar yarından ayrı
Qüssə, qəm eylər.
Sevgilimdən necə qalım aralı?
Bir baxışla qəlbə yüz məlhəm eylər.
Bir baxışla qəlbə yüz məlhəm eylər.

### Naxçıvanım

Eşitmişdim sərvətini,
Gəlib gördüm hörmətini,
Varlığını, qudrətini,

Abala, güllü, Naxçıvanım
İgid elli, Naxçıvanım.
Allı, güllü, Naxçıvanım,
İgid elli, Naxçıvanım.

Gözəl barlı bağların var,
Uca yaşıl dağların var,
Azad, xoşbəxt çağların var,

Düzlərində kəklik gəzər,
Göllərində ördək üzər,
Dağlarını çiçək bəzər,

Arzum budur var olasan,
Od elinə yar olasan,
Ətirli gülzar olasan.

Allı, güllü, Naxçıvanım,
İgid elli, Naxçıvanım.

### Axşam Mahnısı

Qaş qaralır, kölgə tutur
Yavaş-yavaş meşəni.
Könlüm səsdə, gözüm yolda,
Gözləyirəm mən səni.
Səbrim getdi, harda qaldı,
Qaş qaraldı, gəlməyir,
Bəlkə mənim könlümdəki
Döyüntünü bilməyir.
Döyüntünü bilməyir.

Aydın göylər, uca dağlar,
Göy meşələr, lal sular.
Sizi gördüm ürəyimdə
Aşdı-daşdı arzular.
Səbrim getdi, harda qaldı,
Qaş qaraldı, gəlməyir,
Bəlkə mənim könlümdəki
Döyüntünü bilməyir.
Döyüntünü bilməyir.

### Badamlı

Badamlı, nə sərin
Badamlı, nə şirin
Badamlı, dadı var
Badamlı, adı var
Dərdlərin dərmanı,
Belə su de hanı?
Axtar, dolan bu dünyanı

Badamlı, qazı var
Onun da bazı var.
Sezonu yaz olur,
Heyif ki, az olur.
Çox olur şöhrəti,
Xoş sözü, söhbəti
Gəzir eli onun şanı
Bəh-bəh nə gözəl suyu var

bizim Azərbaycanın.
İç onu ürəyin qoy sərin olsun.

Badamlı, lal axır
Badamlı, qol axır
Bulaqdan su çıxır
Deyirsən bal axır.
Dərdlərin dərmanı,
Belə su de hanı?
Axtar, dolan bu dünyanı

Badamlı məzəli,
Süfrələr gözəli
Şüşəsi, qədəhi
Əlbə əl gəzəli
Çox olur şöhrəti,
Xoş sözü, söhbəti.
Gəzir eli onun şanı
Bəh-bəh nə gözəl suyu var
Bizim Azərbaycanın.
İç onu ürəyin qoy sərin olsun.

Badamlı, nə sərin
Badamlı, nə şirin
Badamlı, dadı var
Badamlı, adı var
Dərdlərin dərmanı,
Belə su de hanı?
Gəzir eli sənin şanın
Badamlı!

**Sən Mənim, Mən Sənin**

Qara gözün aldı canım, aldı canım,
Qəlbimdədir arzu-kamım, arzu-kamım.
Gözəllərə naz yaraşır, naz yaraşır,
Vüsalına var gümanım, var gümanım.

Gül, gözəl,
Bil, gözəl,
Sən mənim.
Mən sənin.

Gəzdim Azərbaycanı,
Tapdım sənin kimi ceyranı.
Gəl, mənə naz eyləmə,
Olum gözlərinin qurbanı, heyranı.

Ətirli güllər üzərəm, üzərəm mən,
Tellərini mən bəzərəm, bəzərəm mən.
Sən elimin göyçəyisən, göyçəyisən,
Hər dərdinə mən dözərəm, dözərəm.

Gəzdim Azərbaycanı,
Tapdım sənin kimi ceyranı.
Gəl, mənə naz eyləmə,
Olum gözlərinin qurbanı, heyranı.

### Toy Mahnısı

Məclis düzəlib, tez gəlin dostlar.
Dolsun qədəhlər, deyilsin tostlar.
Bu gözəl toy gecəsi,
Məclisin şən nəğməsi.
Bu gözəl toy gecəsi,
Məclisin şən nəğməsi.
Ucalsın, ucalsın nəğməsi.

Çalın tarı, kamanı,
Qızışdırın aranı.
Qoy oynasın qonaqlar.
Qol qalxsın havaya,
Bəyi çəkin araya.
Nəğmə desin qonaqlar.

Qaldır qədəhi, gəlin sağ olsun.
Bəyin həmişə üzü ağ olsun.
Bu gözəl toy gecəsi,
Məclisin şən nəğməsi.
Bu gözəl toy gecəsi,
Məclisin şən nəğməsi.
Ucalsın, ucalsın nəğməsi.

### Əziz Surət

Hər yanda, bax, gül açılıb,

Gəl, gözəl pəri.
Olmuş adın el içində
Dillər əzbəri.

Aman, olma məndən ayrı,
Ürəyimdə var yerin.
Bil, çıxmır xatirimdən
Bir an sənin qara gözlərin.

Hər yanda, bax, gül açılıb,
Gəl, gözəl pəri.
Olmuş adın el içində
Dillər əzbəri.

Mən qəlbimi hər gözələ
Verməərəm, inan.
Mən hər gülü, hər çiçəyi
Dərmərəm, inan.
Gözlərim görüb, gözəl yar,
Ürəyim sevib səni,
Sevmərəm mən öz gülümdən,
Gözəlimdən özgəni.

Mən qəlbimi hər gözələ
Vermərəm, inan.
Mən hər gülü, hər çiçəyi
Dərmərəm, inan.
Aman olma məndən ayrı.

**Qızlar Mahnısı**

Açdı gül, gül oyandı,
Hər tərəf al boyandı,
Dərdimdən neçə oğlan
Yanar oda qalandı.

Mən güləm, gül üzüm
Yarım, heç zaman solmaz,
Mənim kimi gözəli
Belə, sevməmək olmaz.
Yarim sevməmək olmaz.

Dağlarda qar sevərlər,

Ağacda bar sevərlər.
Özünə çox güvənmə,
Üstünə yar sevərlər.

Dağ döşündən aşmıram,
Küsmüşəm barışmıram.
Hamıdan gözəl mənəm,
Lakin heç danışmıram.

Mən güləm, gül üzüm
Yarım, heç zaman solmaz,
Mənim kimi gözəli
Belə, sevməmək olmaz.

**Kəndimiz**

Yurdum, yuvam
Ay, əziz kəndimiz
Azad, abad
Ay, qəşəng kəndimiz
Gözəl olur səndə
Yay, qış, bahar.
Gözəl olur səndə
Yay, qış, bahar

Yaşıl meşəli,
Ömrüm nəşəli.
Sevirəm səni
Gözəl kəndimiz,
Kəndimiz.

Quşlar, quşlar
Nə gözəl oxuyur.
Bəh, bəh, bəh, bəh
Nə gözəl oxuyur.
Yaşıl, əlvan sarı çiçəklərin.
Yaşıl, əlvan sarı çiçəklərin.

Qarlı dağların,
Barlı bağların.
Sevirəm səni
Gözəl kəndimiz,
Kəndimiz.

**Arzular**

Həyatım, gəncliyim
Bəxtəvər, azad.
Məhəbbət insana
Verir qol-qanad.
Çataram mən sizə
Bir gün vaxt olar.

Arzular, arzular,
Şirin, şirin arzular.

Deyirlər hər kəsin öz sevgisi var,
Qoşa yaranmışdır əzəldən onlar.
Ömrüm, günüm keçir hardadır o yar?
A balam, onu bircə dəfə görə biləydim.
Ona ürəyimi verə biləydim.
Verə biləydim, biləydim, biləydim.

**Coş Dənizim**

Əs, küləyim, coş, dənizim.
Qanad açır gəmimiz, gəmimiz, gəmimiz.
Dalğa bizim, tufan bizim,
Anamızdır bu dəniz, bu dəniz, bu dəniz.

Qızdan bizə göy dəniz əzizdir,
Göy dəniz əzizdir.
Sevgilimiz dənizdir, dənizdir.

Eşqimizi yelkən kimi
Biz açırıq, Xəzərim, Xəzərim, Xəzərim.
Neft dalınca üfüqləri
Biz aşırıq, gözəlim, gözəlim, gözəlim.

**Sənə Də Qalmaz**

Könlüm sənin əsirin,
Qəlbim sənindir, yar,
Qəlbim sənindir.
İnsaf eylə, xoş sözlə
Məni gəl dindir, yar,

Məni gəl dindir.

Söylə, nədir bu ədalar,
Bu işvə, bu naz.
Valla ay qiz bu gözəllik
Sənə də qalmaz.
Yalqızam, yalqız,
Yalqızam yalqız.
Gəl məni möhnətə, oda
Salan vəfasız.
Söylə, nədir bu ədalar,
Bu işvə, bu naz.
Gedər bir gün bu gözəllik
Sənə də qalmaz.

Dağlar başı dumandır,
Aman Allah, yar,
Yenə dumandır.
Ayrılığın ölümdən,
Mənə yamandır, yar,
Mənə yamandır.

**Lirik Mahnı**

Pəncərəmə qondu çiçək,
O çiçək məndim, dilləndi ağ ləpələr.
Əsən külək, dinən külək, coşan külək məndim.

Ulduzların gözlərilə,
Gördüm səni gecə yarı.
Dalğaların sözlərilə,
Dindi könül arzuları.
Aylar keçər, il dolanar,
Yenə qəlbim səni anar.
Aylar keçər, il dolanar,
Yenə qəlbim səni anar.

---

Mətnin yığılması: Nərgiz Abadi
Redaktə edən və veb üçün hazırlayan: Arzu Ağayeva